UOT 502.2

OĞUZ RAYONUNUN DAĞƏTƏYİ SAHƏLƏRİNDƏ MEŞƏLƏRİN FORMALAŞMASINDA YABANI MEYVƏ BİTKİLƏRİNİN ROLU

COŞĞUN MƏMMƏDOV
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Genetik Ehtiyatlar İnstitutu, Şəki Elmi Tədqiqat Bazası,. Şəki ş. Oğuz şossesi
coshqun.mammadov@mail.ru

Tədqiqat zamanı Oğuz rayonunun Baş Daşağıl kəndində Goburqala ərazisində dəniz səviyyəsindən 1120 m. yüksəklikdə yerləşən (E 41.143701 N 47.430039) dağətəyi meşə massivində sayım aparılmış və biomüxtəlifliyin tərkibi tədqiq edilmişdir. Qeyd etdiyim ərazidə dağətəyi və düzən meşələrdə alma (*Malus* Mill), armud (*Pyrus communis* L.), əzgil (*Mespilus* L.), zoğal (*Cornus* L.), yemişan (*Crataegus* L.), fındıq (*Corylus avellana*), şabalıd (*Castanea sativa*), qoz (*Juglans* L.), alça (*Prunus cerasifera*), gilas (*Prunus avium*), ərik (*Prunus armeniaca*) kimi meyvə bitkilərinin təbii areallarda yabanı formaları yayılmışdır. Oğuz rayonu bölgənin turizm potensialı yüksək olan ərazilərindən biridir.Əlverişli iqlim və relyef sayəsində çox zəngin biomüxtəlifliyə sahibdir. Ərazidə alçaq yaruslu tumlu, çəyirdəkli və qərzəkli bitkilərin ağac və kolları əsasən dağların orta və aşağı hissələrində yayıldığı müəyyən olunur. Bu tərkibdə formalaşmış suksessiyalar vahid ərazidə daha sıx bitki örtüyünün əmələ gəlməsinə, meşə döşənəyinin daha qalın olmasına şərait yaradır. Ətəklərdə sıx şəkildə bitən əzgil (*Mespilus* L.), fındıq (*Corylus avellana*) və yemişan (*Crataegus* L.) topaları sanki bir təbii bənd rolu oynayır. Dağların dik yamaclarından gələn iti axınların qarşısını kəsərək yağıntı sularının surətini əhəmiyyətli dərəcədə azaldaraq yuyulmanın qarşısını alır. Zaman-zaman dağların yuxarı yaruslarından yuyulub gələn aşınma materialları və bitki qalıqları əzgil (*Mespilus* L.), murdarça (*Rhamnus* L.), fındıq (*Corylus avellana*), yemişan (*Crataegus* L.), alça (*Prunus cerasifera*), ağaclarının həmçinin itburnu (*Rosa* L.), mərəvçə (*Smilax* L.), ölməzkol (*Pyracantha* M.Roem), böyürtkən (*Eubatus foske*) kolları və lianaların əmələ gətirdiyi keçilməz meşə zolaqlarında toplanaraq dağ ətəklərinin mailliyini azaldır. Tədqiqat zamanı meşənin orta hissəsində 2500 m² ərazidə bütün bitkilər ümumi olaraq sayılmışdır. Bundan sonra bitkilər növlər üzrə sayılaraq mədəni bitkilərin yabanı növlərinin meşənin formalaşmasında rolu tədqiq olunmuşdur. Ərazidə meşələrin formalaşmasında mədəni bitkilərin 9 yabanı növü aşkar edilmişdir. Meşələrin dağətəyi yarusunda bitən ümumi bitkilərin 61.5%-ni yabanı meyvə bitkiləri təşkil etmişdir.

Açar sözlər: *Oğuz rayonu, biomüxtəliflik, yabanı növ, fındıq, alma, humus, genefond.*

GİRİŞ

Azərbaycanın şimal-qərb bölgəsi Böyük Qafqazın ən əlverişli təbii zonalarından biri olub, ərazisi 987689 ha və ya respublikamızın ümumi sahəsinin 11,4 %-ni təşkil edir. Tədqiqat apardığımız şimal-qərb bölgəsi ümumilikdə, Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ və İsmayıllı rayonunun qərb hissəsini, əhatə edən bu ərazi Böyük Qafqazın dağ hissəsini və ona qovuşan Alazan-Əyriçay çökəkliyini, Şirak və Şəki-Qəbələ yaylasının şimal yamaclarını, Həftəran çayı vadilərini, Acı-Nohur, Turud-Sarıca düzünü tutur.

Dağlıq meşələr ölkəmizdə biomüxtəlifliyin qorunmasında, genofondun bərpasında mühüm əhəmiyyət kəsb edir, şirinsulu dağ çaylarının mənbəyini təşkil edir, canlıların oksigenə olan tələbatını ödəməklə yanaşı ətraf mühiti zərərli amillərin təsirindən qoruyur, mikroiqlimi formalaşdırır, torpaq sürüşməsi və dağ uçqunlarının qarşısını alır (Məmmədov T.S., 2011).

Zəngin biomüxtəlifliyə malik Azərbaycan florası dünyanın 200 ən həssas ekoloji regionlarından biri olan Qafqazda özünəməxsus yer tutur. Son illərdə respublikada biomüxtəlifliyin qorunub saxlanması istiqamətində xeyli işlər görülmüşdür. Belə ki,

https://doi.org/10.61642/20257
Available online 10 December 2025

Respublikasında təbiətin mühafizəsi bir sıra qanunvericilik aktları ilə tənzimlənir. Biomüxtəliflik üzrə Milli Strategiya və Fəaliyyət Planı (BMSFP), Ekoloji cəhətdən dayanaqlı sosial-iqtisadi inkişafa dair Milli Proqramı və digər dövlət proqramları qəbul edilmişdir (Əlizadə., Səlimov, 2015).

Bu ərazinin relyefi dəniz səviyyəsindən 200 m-dən 3500 m-ə qədər dəyişir. Bölgənin dəniz səviyyəsindən 600-800 m. yüksəklik qurşağında subtropik iqlim forması hakimdir (AMEA Şəki REM, 2003).

Azərbaycan ərazisinin 19-cu əsrin sonuna qədər 35%-ni meşə örtüyü əhatə edirdisə hal-hazırda isə 11.8%-ni meşəlik təşkil edir. Azərbaycan respublikasında 1021 min hektar meşə ərazisi mövcuddur ki adambaşına 0.12 ha meşə ərazisi düşür. Azərbaycan dendraflorasında 48 fəsilə, 135 cins üzrə 435 ağac və kol növü yayılmmışdır ki, bu da respublika florasının 10%-ni təşkil edir.Oğuz rayonunun dağətəyi meşə massivlərində dağların yuxarı yaruslarından yuyulub gələn aşınma materialları və bitki qalıqları əzgil (*Mespilus L.),* murdarça (*Rhamnus L.*), fındıq (*Corylus avellana*), yemişan (*Crataegus L.*), alça (*Prunus cerasifera*), ağaclarının həmçinin itburnu (*Rosa L.),* mərəvçə (*Smilax L.*), ölməzkol (*Pyracantha M.Roem*), böyürtkən (*Eubatus foske)* kolları və lianaların əmələ gətirdiyi keçilməz meşə zolaqlarında toplanaraq dağ ətəklərinin mailliyini azaldır və qalın humus qatı əmələ gətirir.

Ərazidə yayılmış əzgilin, yemişanın, fındığın, almanın, şabalıdın bir çox növləri vardır.Yemişan (*Crataegus)* cinsinin Şimal yarımkürəsinin mülayim iqlimli ərazilərində yayılmış 200-ə, Azərbaycanda isə 20-yə qədər növü var (Qurbanov, 2009).

Respublikamızın yabanı florasında rast gəlinən ali bitkilər 4557 növ təşkil edir ki, bu da bütövlükdə Qafqazın təbii florasında olan ali bitki növlərinin (6350 növ) 70%-dən çoxunu təşkil edir.Halbuki Azərbaycan ümumi Qafqazın ərazisinin 16%-i qədərdir (Əsgərov., 2016). Buda bir daha onu göstəir ki meşələrimiz növ çoxluğu, biomüxtəliflik baxımından çox zəngindir.Azərbaycanın şimal-qərb bölgəsində digər bölgələrdən fərqli olaraq özünəməxsus meyvələr: fındıq, şabalıd, şərq xurması bundan başqa tütün çay kimi texniki bitkilər yetişdirilir. İpəkçilik sahəsidə sırf bu bölgəyə xas olan vacib təsərrüfat sahələrindən biridir. Tədqiqat ərazisində dağətəyi meşələrin tərkibi çox zəngindir və çox yarusludur (Şəkil 1, 2).



Şəkil 1. Meşənin ümumi görünüşü



Şəkil 2. Meşənin daxili görünüşü

Dağların ətəklərində əmələ gələn qalın humus qatlarında toplanaraq qalan su kütləsi optimal rütubətin formalaşmasında, külək vasitəsi ilə ümumi meşələrin areasiyasında mühüm rol oynayır (Mammadov.et al., 2019).

Azərbaycanın şimal-qərb bölgəsində fındığın yabanı formaları və xalq seleksiyası sortları geniş yayılmışdır (Azizov və b., 2017).

Respublikanın ayrı-ayrı dağ sistemlərində bitki qurşaqlığı qanunauyğunluğunda müəyyən oxşarlıq olsa da onları bir-birindən fərqləndirən cəhətlərdə də var (Məmmədov, Xəlilov, 2002).

MATERİAL VƏ METODİKA

Tədqiqat zamanı Oğuz rayonunun Baş Daşağıl kəndində Goburqala ərazisində dəniz səviyyəsindən 1120 m. yüksəklikdə yerləşən (E 41.143701 N 47.430039) dağətəyi meşə massivində V.T. Yarmişkonun (Yarmişko, 2002).metodundan istifadə edərək 2500 m² sahədə sayım aparılmış və biomüxtəlifliyin tərkibi tədqiq edilmişdir. Mədəni bitkilərin yabanı növlərinin meşənin formalaşmasında rolu tədqiq olunmuşdur.

NƏTİCƏLƏR VƏ ONLARIN MÜZAKİRƏSİ

Tədqiqat zamanı 2500 m² ərazidə sayım apardığımız zaman 17 növ və ümumi 107 bitki qeydə alınmışdır ki, bunların 66-sı meyvə bitkilərinin yabanı növlərinə aid olmuşdur (Şəkil 3, 4). Bunlardan 4 növü tumlu meyvə, 3 növü çəyirdəkli meyvə, 2 növü isə qərzəkli meyvələrin yabanı növlərinə aid olmuşdur ki ərazidəki bitki növlərinin 53%ni təşkil etmişdir. Digər 8 növ isə meşə bitkilərindən ibarət olmuşdur. Meşənin sayım apardığımız hisssəsində ümumilikdə bitkilərin 66 ədədi yəni 61.5 %-i meyvə bitkilərinin yabanı növlərindən ibarət olmuşdur (Cədvəl 1).

Cədvəl 1.

Sıra N	**Oğuz rayonu Baş Daşağıl kəndi ərazisində dağətəyi meşə massivində mövcud olan ağac və kol bitkiləri**		**2500 m² sahədə qeydə alınmış bitkilər**			
			Bitkilərin ümumi sayı (ədəd)	**Növ sayı**	**Ərazidə bitki sayının %-lə ifadəsi**	**Quruplar üzrə (%)**
1	**T UMLU**	Alma	2	1	1.9	**45.7**
2		Armud	1	1	0.9	
3		Əzgil	15	1	14.0	
4		Yemişan	31	1	28.9	
5	**ÇƏYİRDƏKLİ**	Alça	3	1	2.8	**9.3**
6		Gilas	4	1	3.7	
7		Zoğzal	3	1	2.8	
8	**QƏRZƏKLİ**	Fındıq	6	1	5.6	**6.5**
9		Şabalıd	1	1	0.9	
Mədəni bitkilərin yabanı əcdadlarının ərazidə ümumi payı (%)						**61.6 %**
10	**DİGƏR MEŞƏ BİTKİLƏRİ**	Ağcaqayın	2	1	1.9	
11		Vələs	16	1	14.9	
12		Fıstıq	4	1	3.7	
13		Palıd	1	1	0.9	
14		Qarağac	9	1	8.4	
15		Görüş	1	1	0.9	
16		İtburnu	5	1	4.6	
17		Murdarça	3	1	2.8	
Meşə bitkilərinin ərazidə ümumi payı (%)						**38.4%**
C Ə M İ			**107**	**17**		

Meyvə bitkiləri ilə zəngin olan bu meşələr çox güclü qida zənciri yaradaraq digər canlıları özünə cəlb etməklə ideal ekosistem formalaşdırmaqdadır. Zəngin biomüxtəlifliyə sahib bu meşələrdə yayılmış mədəni bitkilərin yabanı formaları minillər boyu ərazidə yaşayan insanların təsərrüfat fəaliyyətlərinədə təsir göstərmişdir. Beləki bu meşələrdə yayılmış yabanı meyvə formalarından insanlar uzun illər boyu seçmə üsulu ilə çox qiymətli meyvə sortları əldə ediblər.



Şəkil 3. Yabanı fındıq



Şəkil 4. Yabanı alça

Buna misal olaraq Sini armud, Bildirçinbudu armud, İryal armud, Qızıl Əhmədi alma, Qəndil Sinab alma, Öküzürəyi gilas, Bardaq zoğal, Ağ zoğal sortlarını misal göstərmək olar.

NƏTİCƏ

1.Tədqiqat aparılan ərazidə 2500 m² sahədə ümumi 107 bitkidən 66-sı meyvə bitkilərinin yabanı növlərinə aid olmuşdur. Meşənin formalaşmasında meyvə bitkilərinin yabanı növləri 61.6% təşkil etmişdir. Buda onu sübut edirki Azərbaycanın şimal-qərb bölgəsində, Oğuz rayonu ərazisində meşələrin formalaşmasında meyvə bitkilərinin yabanı növlərinin rolu böyükdür.

2.Tədqiqat sahəsində ümumi 17 növ bitki qeydə alınmışdır ki, bunlardan 9 növü meyvə bitkilərinin yabanı növlərinə aid olmuşdur.Növ tərkibinə görə mədəni bitkilərin yabanı növləri 53% təşkil etmişdir.

3.Ərazidə meşənin növ tərkibi çox zəngindir. Biomüxtəlifliyin yüksək səviyyədə olması regionda çoxlu sayda xalq seleksiyası sortlarının əmələ gəlməsinə səbəb olmuş və genefondu zənginləşdirmişdir. Biomüxtəlifliyi yüksək olan ekosistemlər həmdə ölkənin iqtisadi gəlir mənbəyi hesab olunur.

ƏDƏBİYYAT

AMEA Şəki REM. Azərbaycan respublikasının regional coğrafi problemləri.Şəki-Zaqatala iqtisadi rayonu. Bakı, 2003;190. [ANAS Sheki RSC. Regional geographical problems of the Republic of Azerbaijan. Sheki-Zagatala economic region. Baku, 2003;190. (in Azerbaijani)].

Əlizadə V.M., Səlimov R.A.. Azərbaycanda biomüxtəliflik, ekosistem və ekosistem xidmətlərinin inkişafı və perspektivləri. AMEA Botanika İnstitutunun elmi əsərləri, XXXV

cild. Bakı, 2015;3-8. [Alizadeh V.M., Salimov R.A. Development and prospects of biodiversity, ecosystem and ecosystem services in Azerbaijan. Scientific works of the Institute of Botany of ANAS, volume XXXV. Baku, 2015; 3-8. (in Azerbaijani)]

Əsgərov A.M. Azərbaycanın bitki aləmi. Bakı, 2016;444. [Askerov A.M. Flora of Azerbaijan. Baku, 2016;444 (in Azerbaijani)].

Qurbanov E.M. Ali bitkilərin sistematikası. Dərslik.Bakı, 2009;429. [Gurbanov E.M. Systematics of higher plants. Textbook. Baku, 2009;429. (in Azerbaijani)].

Məmmədov Q. Ş, Xəlilov M. Y. Azərbaycan meşələri, Bakı, 2002;472. [Mammadov G. Sh., Khalilov M. Y. Forests of Azerbaijan, Baku, 2002;472. (in Azerbaijani)]

Məmmədov T.S. Azərbaycan dendroflorası. Bakı, 2011;1:312. [Mammadov T.S. Dendroflora of Azerbaijan. Baku, 2011;1:312 (in Azerbaijani)].

Ярмишко В.Т Методы изучения лесных сообществ. НИИХимии СПБГУ, 2002;240. [Yarmishko V.T. Methods of studying forest communities. Research Institute of Chemistry of St. Petersburg State University, 2002;240. (in Russian)]

Mammadov J.I, Azizov F.Sh, Seyidzadeh I.B. The role and importance of the pome, stone and nut fruits in the formation of mountain ecosystems in the north-western part of Azerbaijan. İnternational conference "Mountains: Cultures, Landscapes and Biodiversity", Baku, Azerbaijan: 10-12 may, 2019; 91-94.

Azizov F.Ş., Halilov Z.M., Memmedov C.İ.. Azerbaycanın kuzeybatı bölgəsində fındık bitkisinin bioçeşitliliği ve sürdürülebilir kullanımı. İktisadi və Sosyal Boyutlarıyla Fındık Sempozyumu" Ordu Universiteti, Türkiye. 10-12 Mayıs. 2017; 217-222. [Azizov F.Ş., Halilov Z.M., Memmedov C.İ. Biodiversity and sustainable use of hazelnut plant in the northwestern region of Azerbaijan. Economic and Social Dimensions of Hazelnut Symposium" Ordu University, Türkiye. 10-12 May. 2017; 217-222. (in Turkish)]

РОЛЬ ДИКИХ ПЛОДОВЫХ РАСТЕНИЙ В ФОРМИРОВАНИИ ЛЕСОВ В ПРЕДГОРНЫХ ЗОНАХ ОГУЗСКОГО РАЙОНА

Джошгун Мамедов
Институт генетических ресурсов Министерства науки и образования Азербайджанской Республики,
Шекинская научно-исследовательская база

Во время исследования был проведён учёт и изучен состав биоразнообразия в предгорном лесном массиве, расположенном на территории Гобуркала, в селе Баш Дашагыл Огузского района, на высоте 1120 м над уровнем моря (E 41.143701, N 47.430039). В указанной местности, в предгорных и равнинных лесах, в естественных ареалах распространены дикие формы плодовых растений, таких как яблоня (*Malus* Mill.), груша (*Pyrus communis* L.), мушмула (*Mespilus* L.), кизил (*Cornus* L.), боярышник (*Crataegus* L.), лесной орех (*Corylus avellana*), каштан (*Castanea sativa*), грецкий орех (*Juglans* L.), алыча (*Prunus cerasifera*), черешня (*Prunus avium*), абрикос (*Prunus armeniaca*).

Огузский район является одним из регионов с высоким туристическим потенциалом. Благодаря благоприятному климату и рельефу он отличается богатым биоразнообразием. Установлено, что деревья и кустарники семечковых, косточковых и орехоплодных растений нижнего яруса преимущественно распространены на средних и нижних склонах гор. Такие сукцессии, сформировавшиеся в данном растительном сообществе, способствуют формированию более плотного растительного покрова и более мощного слоя лесной подстилки на этих участках.

Густые заросли мушмулы (*Mespilus* L.), лесного ореха (*Corylus avellana*) и боярышника (*Crataegus* L.), произрастающие у подножий гор, выполняют функцию естественного барьера. Они задерживают стремительные потоки, стекающие с крутых склонов, значительно уменьшая скорость поверхностного стока и предотвращая эрозию. Со временем продукты эрозии и растительные остатки, смываемые с верхних ярусов гор, накапливаются в труднопроходимых

лесных полосах, образованных деревьями мушмулы (*Mespilus* L.), жостера (*Rhamnus* L.), лещины (*Corylus avellana*), боярышника (*Crataegus* L.), алычи (*Prunus cerasifera*), а также кустарниками и лианами, такими как шиповник (*Rosa* L.), смилакс (*Smilax* L.), пироканта (*Pyracantha* M. Roem), ежевика (*Rubus* fruticosus), что способствует снижению уклона предгорных склонов.

В ходе исследования в центральной части леса на участке площадью 2500 м² была проведена общая инвентаризация всех растений. Затем растения были классифицированы по видам, и была изучена роль диких форм культурных растений в формировании лесных сообществ. В данной местности было выявлено 9 диких видов культурных растений, участвующих в формировании леса. Дикие плодовые растения составили 61,5 % от общего количества растений, произрастающих в предгорной части леса.

Ключевые слова: *Огузский район, биоразнообразие, дикорастущий вид, фундук, яблоко, гумус, генофонд.*

THE ROLE OF WILD FRUIT PLANTS IN FOREST FORMATION IN THE FOOTHILL AREAS OF OGHUZ DISTRICT

Joshghun Mammadov
Genetic Resources Institute, Ministry of Science and Education of the Republic of Azerbaijan
Sheki Scientific Research Base

During the study, a survey was conducted and the composition of biodiversity was examined in a foothill forest massif located in the Goburqala area of Bash Dashagil village, Oguz District, at an altitude of 1120 meters above sea level (E 41.143701, N 47.430039). In the specified area, wild forms of fruit-bearing plants such as apple (*Malus* Mill.), pear (*Pyrus communis* L.), medlar (*Mespilus* L.), cornelian cherry (*Cornus* L.), hawthorn (*Crataegus* L.), hazelnut (*Corylus avellana*), chestnut (*Castanea sativa*), walnut (*Juglans* L.), cherry plum (*Prunus cerasifera*), sweet cherry (*Prunus avium*), and apricot (*Prunus armeniaca*) are naturally distributed in both foothill and lowland forests.

The Oguz District is one of the regions with high tourism potential. Thanks to its favorable climate and terrain, it is characterized by rich biodiversity. It was found that trees and shrubs of pome, stone, and nut-bearing species, mainly belonging to the lower vegetation layer, are primarily distributed on the middle and lower slopes of the mountains. These plant successions contribute to the formation of denser vegetation cover and a thicker forest litter layer within the area.

Dense thickets of medlar (*Mespilus* L.), hazelnut (*Corylus avellana*), and crataegus (*Crataegus* L.), growing at the mountain foothills, act as natural barriers. They intercept rapid surface runoff from steep mountain slopes, significantly reducing the flow rate of rainwater and preventing erosion. Over time, erosion materials and plant debris washed down from the upper mountain layers accumulate in the impenetrable forest belts formed by trees such as medlar (*Mespilus* L.), buckthorn (*Rhamnus* L.), hazelnut (*Corylus avellana*), crataegus (*Crataegus* L.), cherry plum (*Prunus cerasifera*), as well as shrubs and lianas like rosehip (*Rosa* L.), smilax (*Smilax* L.), firethorn (*Pyracantha* M. Roem), and blackberry (*Rubus fruticosus*), thereby helping decrease the steepness of the foothill slopes.

As part of the research, a general inventory of all plant species was carried out in a 2500 m² area in the central part of the forest. The plants were then classified by species, and the role of wild forms of cultivated plants in forest formation was studied. In total, nine wild species of cultivated plants were identified in the area, all of which contributed to the development of the forest. Wild fruit species accounted for 61.5% of the total vegetation in the foothill forest zone.

Keywords: *Oguz district, biodiversity, wild species, hazelnut, apple, humus, gene pool.*

Çapa təqdim etmişdir: Mirzə Musayev, b.ü.f.d., dosent
Redaksiyaya daxil olma tarixi: 03.07.2025
Təkrar işlənməyə göndərilmə tarixi: 09.08.2025
Çapa qəbul edilmə tarixi: 15.09.2025